

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 99 (23.511)

*25 iyun 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncə şəhərinə səfərə gəliblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün Gəncədə “NB Satınalma və Ticarət” MMC-nin süni mərmər və qranit istehsalı zavodunun, modul tipli xəstəxananın, Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun açılışlarında, “Şah Abbas” və “Uğurlu Xan” karvansara kompleksinin, M.A.Abbaszadə küçəsində Gəncəçay çayı üzərindəki körpünün bərpadan sonra istifadəyə verilməsi mərasimlərində iştirak ediblər.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də Gəncə şəhəri ərazisində Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən inşa edilən yaşayış kompleksinin, Gəncə Dövlət Dram Teatrının yeni binasının tikintisi ilə tanış olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Gəncə İdman Sarayının tikintisi ilə tanış olub.

## Babək şəhərinin, Nehrəm və Cəhri qəsəbələrinin təqdimatı olub





İyunun 24-də Babək Rayon Mədəniyyət Sarayında Babək şəhərinin, Nehrəm və Cəhri qəsəbələrinin təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Azərbaycan Respublikası Prezidentinin 2020-ci il iyunun 12-də imzaladığı “Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Qanununa əsasən Babək qəsəbəsinə şəhər, Nehrəm və Cəhri kəndlərinə isə qəsəbə statusu verilmişdir.

Ali Məclisin Sədri qərarın qəbuluna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını, hörmət və ehtiramını bildirmiş, bütün rayon əhalisini təbrik etmişdir.

Qeyd olunmuşdur ki, ümummilli lider Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə başlatdığı inkişaf strategiyasının əsasında bir tərəfdən milli-mənəvi dəyərlərə, tarixi-mədəni irsə qayıdış, digər tərəfdən isə torpağa sahiblik və bölgələrin inkişafına qayğı siyasəti dayanırdı. Xüsusilə ötən əsrin 70-ci illərində sərhəd yaşayış məntəqələrinin möhkəmləndirilməsi, yeni qəsəbə və rayonların yaradılması uzaqgörən siyasətin nəticəsi kimi gələcək müstəqilliyə hesablanmış tədbirlər idi. Ulu öndərin milli quruculuq strategiyasının tərkib hissəsi kimi 1978-ci ildə yaradılan Babək rayonunun ötən dövrdə keçdiyi inkişaf yolu bunu bir daha təsdiq edir. Dövlət Proqramlarının uğurlu icrası, həyata keçirilən quruculuq tədbirləri Babək rayonunun görkəmini dəyişmiş, davamlı sosial-iqtisadi inkişafa nail olunmuş, rayonun kəndləri böyümüş, əhalinin sayı və məskunlaşma artmışdır. Ötən 25 ildə Babək rayonunda 42 təhsil, 35 səhiyyə, 38 mədəniyyət müəssisəsi, 63 inzibati bina, 27 körpü, 189 istehsal, xidmət və digər infrastruktur obyektləri tikilmiş və yenidən qurulmuş, müasir yol şəbəkəsi yaradılmışdır. Rayon mərkəzində və kəndlərdə əhalinin rahat yaşayışına xidmət edən tədbirlər ardıcıl şəkildə görülmüş, geniş quruculuq işləri aparılmış, sosial və iqtisadi həyatın bütün sahələrində yeni texnologiyalar tətbiq edilmiş, bütün rayon ərazisi rabitə xidməti və internetlə təmin olunmuş, ümumtəhsil məktəblərində 829 kompüter və 102 elektron lövhə quraşdırılmışdır.

Ali Məclisin Sədri demişdir: Müxtəlif profilli yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması nəticəsində Babək rayonu aqrar rayondan aqrar-sənaye rayonuna çevrilmişdir. Ötən dövrdə rayonda sənaye məhsulunun həcmi 127 dəfə artmışdır. Hazırda rayonda 62 adda sənaye məhsulu istehsal olunur. 2019-cu ildə muxtar respublika üzrə sənayedə istehsal olunmuş ümumi məhsulun 13 faizi, kənd təsərrüfatında istehsal olunmuş ümumi məhsulun 20 faizi, o cümlədən ümumi əkin sahəsinin 26 faizi, istehsal olunmuş elektrik enerjisinin 72 faizi Babək rayonunun payına düşmüşdür. Bu gün Babək rayonunda 1 məktəbəqədər təhsil müəssisəsi, 36 ümumtəhsil məktəbi, 5 uşaq musiqi məktəbi, 2 muzey, 35 kitabxana, 30 mədəniyyət və 35 səhiyyə müəssisəsi fəaliyyət göstərir. Eyni zamanda rayonda böyük sahibkarlar sinfi formalaşmışdır. Özəl bölməyə göstərilən qayğıdan səmərəli istifadə nəticəsində 200-ə yaxın yeni istehsal müəssisəsi yaradılmışdır. Rayonda 82 min 842 hektar torpaq sahəsi vardır ki, bunun da 26 min 556 hektarı dövlət, 43 min 216 hektarı bələdiyyə, 13070 hektarı isə xüsusi mülkiyyətdədir. Əgər 1978-ci ildə rayon üzrə 1145 hektar həyətyanı torpaq sahəsi vardısa, hazırda Babək rayonunda xüsusi mülkiyyətdə olan torpaqların 10 min 314 hektarı pay, 2756 hektarı isə həyətyanı torpaqlardır. Davamlı sosial-iqtisadi inkişafın, müasir infrastruktur və əhali məşğulluğunun təmin olunması rayonda demoqrafik vəziyyətə də öz təsirini göstərmiş, 1 may 2020-ci il tarixə Babək rayonunda əhalinin sayı 1978-ci ilin sonu ilə müqayisədə 77 faiz artaraq 76 min nəfərə yaxın olmuşdur. Hazırda Babək şəhərində 12 mindən, Nehrəm qəsəbəsində 16 mindən, Cəhri qəsəbəsində isə 11 mindən artıq əhali yaşayır. Sadalanan bütün bu uğurlar, inkişafın təmin olunması Babək rayonunun inzibati ərazi bölgüsündə dəyişiklik üçün əsas yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ***“Bizim məqsədimiz birdir – ölkəmizi daha da inkişaf etdirmək, gücləndirmək, daha da güclü Azərbaycan yaratmaq. Biz bu məqsədə doğru uğurla gedirik. Əgər hər bir bölgədə və hər bir kənddə bütün məsələlər öz həllini taparsa, onda ölkənin bütün məsələləri həll olunacaqdır***” fikrini xatırladan Ali Məclisin Sədri demişdir ki, yaşayış məntəqələrinin böyüməsi, məskunlaşmanın artması, yeni qəsəbə və şəhərlərin yaranması müstəqil Azərbaycanın inkişaf reallıqlarıdır. Bu gün ölkə Prezidenti tərəfindən davam etdirilən ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsi inkişaf edən Babək şəhəri, Nehrəm və Cəhri qəsəbələridir. Babək rayonunun inzibati ərazi bölgüsündə edilən dəyişiklik qarşıya daha mühüm vəzifələr qoyur. Bundan sonra da rayonda sosial-iqtisadi inkişaf təmin edilməli, əhalinin məşğulluğu, rifahı və rahat yaşayışı diqqətdə saxlanılmalı, təsərrüfatlar daha da genişləndirilməli, yeni istehsal və xidmət sahələri yaradılmalı, qanunun tətbiqi ilə bağlı nəzərdə tutulan vəzifələr vaxtında icra olunmalıdır.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində hər kəsə uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov çıxış edərək demişdir ki, Babək rayonunda bütün sahələrdə inkişaf təmin olunmuş, 2019-cu ildə vergilər və digər büdcə ödənişləri üzrə proqnoz tapşırığa 110 faiz, məcburi dövlət sosial sığorta haqlarının yığılması üzrə 143,6 faiz, işsizlik sığortası üzrə 133 faiz əməl edilmişdir. Proqnozlaşdırılmış vergilər üzrə 1 milyon 992 min manata qarşı 2 milyon 191 min manat, sosial sığorta üzrə 4 milyon 500 min manata qarşı 6 milyon 463 min manat, işsizlik sığortası üzrə 185 min manata qarşı 246 min manat vəsait toplanılmışdır. Büdcəyə proqnozda nəzərdə tutulduğundan vergilər üzrə 199 min manat, sosial sığorta üzrə 1 milyon 963 min manat, işsizlik sığortası üzrə 61 min manat artıq vəsait yığılmışdır. Proqnozlaşdırılmış 10 vergi tədiyə növü üzrə proqnozlar artıqlaması ilə yerinə yetirilmişdir. 2019-cu ildə Babək rayon yerli büdcəsinin xərcləri 1 milyon 800 min manat dürüst təyinata qarşı 1 milyon 795 min manat və ya 99,7 faiz icra olunmuşdur. Artıq 4 ildir ki, rayona dotasiya ayrılmır. Babək rayonunun büdcəsi mərkəzi büdcədən vəsaitlər almadan yerli gəlirlər hesabına maliyyələşdirilir. 2020-ci ildə Babək rayon yerli büdcəsinin gəlirləri xərclərinə bərabər olmaqla, 2 milyon 963 min manat məbləğində təsdiq olunmuşdur ki, bu da 2019-cu ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 51 faiz çoxdur. Ümumilikdə, 2019-cu ildə Babək rayonunda əsas kapitala yönəldilən vəsaitlərin həcmi 68 milyon 245 min manat, 2020-ci ilin ötən dövründə isə bu vəsaitin məbləği 17 milyon 347 min manat təşkil etmişdir. Babək rayonu üzrə su-kanalizasiya sistemlərinin qurulmasına 56 milyon 337 min manat, son 4 ildə yol infrastrukturunun inkişafı, əsaslı təmiri və yenidən qurulması üçünsə 8 milyon 505 min manat vəsait xərclənmişdir. Səbuhi Məmmədov bildirmişdir ki, müvafiq Qanuna və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 22 iyun tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən aidiyyəti normativ-hüquqi aktlarda dəyişikliklər təmin ediləcəkdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov çıxış edərək demişdir ki, muxtar respublikanın digər rayonları kimi Babək rayonu da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən daim diqqət və qayğı ilə

*Ardı 2-ci səhifədə*

əhatə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Babək rayonunun təşkil olunmasının 30 illiyi haqqında" 2008-ci il 7 iyun tarixli və "Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında" 2018-ci il 16 fevral tarixli Sərəncamlarının icrası rayonun inkişafına geniş imkanlar yaratmışdır. Bu gün 1 şəhər, 2 qəsəbə və 33 kəndi özündə birləşdirən rayonda davamlı inkişaf təmin edilmiş, 2009-cu illə müqayisədə ümumi məhsul istehsalı 2,6 dəfə artaraq 2019-cu ildə 391 milyon 952 min manatı ötmüşdür. Ölkə üzrə 2019-cu ildə günəş elektrik stansiyalarında istehsal olunmuş enerjinin 81,9 faizi Babək rayonunun payına düşmüşdür. Heydər Əliyev Su Anbarının istifadəyə verilməsi, Uzunoba Su Anbarının yenidən qurulması, qapalı suvarma şəbəkələrinin, nasos stansiyalarının və kanalların istifadəyə verilməsi yeni torpaqların əkin dövriyyəsinə daxil olunmasına səbəb olmuşdur. Aparılmış tədbirlərin nəticəsi olaraq 2019-cu ildə rayonda 16 min 172 hektar sahədə əkin aparılmışdır ki, bu da 1978-ci ildəki göstəricidən 1,7 dəfə çoxdur. Bu dövrdə dənli və dənli-paxlalılar əkini 1,6 dəfə, kartof əkini 18 dəfə, tərəvəz əkini 13 dəfə, ərzaq üçün bostan bitkiləri əkini 18 dəfə, meyvə və giləmeyvə bağlarının sahəsi isə 9 dəfə artmışdır. Eyni zamanda qaramalın sayı 20, xırdabuynuzlu heyvanların sayı isə 50 faiz artmış, heyvandarlıq təsərrüfatları genişləndirilmişdir. 1997-2020-ci illərdə rayon iqtisadiyyatına 883 milyon manatdan çox vəsait yönəldilmişdir ki, bunun da 88 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür. Kompleks inkişaf məşğulluğu da təmin etmiş, 2004-cü ildən ötən dövrdə rayonda 9 min 338 yeni iş yeri açılmışdır ki, bunun da 76 faizi daimi iş yerləridir.

Tədbirdə çıxış edən Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov demişdir ki, ötən illər ərzində ölkə başçısının müvafiq Sərəncamları ilə Babək rayonunun 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab, həmçinin 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları yenidən qurularaq istifadəyə verilmişdir. Rayonun son 25 ildə sosial mənzərəsi əsaslı şəkildə dəyişilmiş, böyük inkişaf yolu keçərək əsl intibah dövrünü yaşamış və yenidən qurulmuşdur. Əhalinin pay torpaqları ilə təmin olunması, müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması, torpaq mülkiyyətçilərinə dövlət tərəfindən verilən subsidiyalar rayonda kənd təsərrüfatının dinamik inkişafına təkan vermiş, məhsul istehsalı artmışdır. Bu gün muxtar respublikanın iqtisadi həyatında mühüm rola malik olan bir sıra sənaye və istehsal müəssisələri Babək rayonunun ərazisində yerləşir. Ötən dövrdə rayonda yaradılan sosial infrastrukturun əsas qollarından birini də əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi və kanalizasiya xətlərinin çəkilməsi təşkil etmişdir. Belə ki, rayonun Şıxmahmud, Xəlilli və Şəkərabad kəndlərində, Babək şəhərində içməli su və kanalizasiya şəbəkəsinin tikintisi başa çatdırılmışdır. Hazırda Nehrəm qəsəbəsində və Araz kəndində içməli su və kanalizasiya xətlərinin tikintisi davam etdirilir. 2020-ci ilin ötən dövründə Babək Rayon Baytarlıq İdarəsinin inzibati binası istifadəyə verilmişdir. Hazırda Babək şəhərində bazar kompleksinin inşası davam etdirilir, Nəcəfəlidizə kəndində kompleks quruculuq işləri aparılır. Muxtar respublika rəhbərinin böyük diqqət və qayğısının nəticəsidir ki, Babək qəsəbəsi böyüyərək gözəl və müasirtipli şəhərə, Nehrəm və Cəhri kəndləri isə qəsəbəyə çevrilmişdir. Hazırda Babək şəhərində rayon icra hakimiyyəti, şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik, şəhər bələdiyyəsi və mərkəzi icra hakimiyyəti orqanlarının rayon idarə, müəssisə və təşkilatları üçün müasir inzibati binalar yerləşir. Şəhərdə 2 tam orta məktəb, uşaq bağçası, rabitə evi, mərkəzi xəstəxana, muzey, musiqi məktəbi, məscid və mərasim evi istifadəyə verilib. 9 istehsal və 4 sənaye müəssisəsi fəaliyyət göstərir. Nehrəm və Cəhri qəsəbələri də ən müasir infrastruktura malikdir. Rasim Hüseynov Babək rayonuna göstərilən yüksək diqqət və qayğıya görə rayon ictimaiyyəti adından ölkə Prezidentinə və Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Babək şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə Hüseyn Həsənov çıxış edərək demişdir ki, Babək rayonu müstəqillik illərində öz simasını tamamilə dəyişmişdir. 1978-ci ildə rayon təşkil olunan zaman indiki Babək şəhərində bir orta məktəb və bir neçə inzibati bina vardı. Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində Babək şəhəri başdan-başa yenilənmiş, müasir görkəm almışdır. Babək qəsəbəsinə şəhər statusunun verilməsi də əldə olunmuş dinamik inkişafın nəticəsidir. Bu qərar babəklilərin böyük sevincinə və qüruruna səbəb olmuşdur. Hüseyn Həsənov Babək qəsəbəsinə şəhər statusunun verilməsinə görə sakinlər adından ölkə Prezidentinə minnətdarlıq etmişdir.

Sonra Naxçıvan Dövlət Televiziyasının hazırladığı "Babək rayonu: dünən və bu gün" filminə baxış olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikanın Teleradio və Mətbuat şuralarına yeni səlahiyyətlər verilib

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli Qanunu ilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə 533-1-ci maddə əlavə edilmişdir. Müvafiq maddəyə əsasən kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə fiziki şəxslərə yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslərə üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslərə beş yüz manatdan min manatadək məbləğdə cərimə tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 23 iyun tarixli Fərmanı ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na dəyişikliklər edilmişdir. Həmin dəyişikliyə əsasən muxtar respublikada dövlət dili normalarının pozulması teleradio yayımlarında baş verdikdə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədrinə, şöbə və sektor müdirinə, digər kütləvi informasiya vasitələrində aşkar edildikdə Naxçıvan Mətbuat Şurasının sədrinə protokol tərtib etmək səlahiyyəti verilmişdir.

## Əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində tədbirlər razılıq doğurur

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iyun ayının birinci yarısında qəbul etdiyi qərarlar və keçirilən tədbirlər sırasında iki mühüm məsələ də yer alıb. Naxçıvan Muxtar Respublikasında pandemiyanın mənfi təsirlərindən qorunmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyi işsiz kimi qeydiyyata alınan vətəndaşlara hər ay 190 manat olmaqla, 2 ay üçün 380 manat vəsaitin ödənilməsini həyata keçirib. Bu günə qədər isə 8677 nəfərə 3 milyon 297 min manat birdəfəlik vəsait ödənilib.

Eləcə də pandemiyanın muxtar respublika iqtisadiyyatına mənfi təsir göstərməsinin qarşısını almaq məqsədilə vergiödəyici kimi qeydiyyatda olan sahibkarlıq subyektlərində çalışan işçilərin əməkhaqlarının ödənilməsi və fərdi sahibkarlara birdəfəlik maliyyə yardımı verilməsi üçün vəsait ayrılıb. Belə ki, 293 sahibkarlıq subyektində çalışan 3266 muzdlu işçinin əməkhaqqının ödənilməsi üçün, ümumilikdə, 1 milyon 257 min manat məbləğində birdəfəlik maliyyə yardımı göstərilmişdir. Ümumilikdə, qeyd edilən sahələr üzrə muxtar respublikada, fəaliyyət göstərən sahibkarlara bu günə qədər edilən maliyyə yardımının məbləği 2 milyon 997 min manat olmuşdur. Vəsaitlərin ayrılması davam etdirilir.

Fürsətdən istifadə edərək yardım almış vətəndaşların bir neçəsi ilə həmsöhbət olduq. Onların dedikləri:



***Elşən CƏFƏROV, sahibkar***: – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasını sürətli inkişaf mərhələsinə çıxarıb. Qarşıya qoyulmuş vəzifələrin icrası, çoxşaxəli iqtisadiyyatın formalaşması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi, mühüm əhəmiyyətə malik Dövlət proqramlarının reallaşdırılması nəticəsində muxtar respublikada davamlı inkişaf təmin olunub. Naxçıvanda sahibkarlığın inkişaf etdirilməsi üçün yaradılan münbit şərait öz bəhrəsini verib ki, bunun da çox hissəsi Sahibkarlığın İnkişafı Fondunun payına düşür. Dövlət sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin genişləndirilməsi, maarifləndirmə, sahibkarların işgüzar əlaqələrinin inkişafı və müxtəlif növ xidmətlərin göstərilməsi kimi kompleks tədbirlər bu gün də uğurla davam etdirilir.

Sahibkarlığın inkişaf etdirilməsi, dövlətin sahibkara, iş adamına sahib çıxması iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yüksəlməsinə, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə bundan sonra da böyük töhfələr verəcək. Biz sahibkarların dövlətin ayırdığı vəsaitlə təmin edilməsi göstərilən qayğıdan xəbər verir. Bunun üçün dövlətimizə minnətdarıq.



***Xalidə ƏSGƏROVA:*** – Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi əhalinin sosial müdafiəsinin təmin edilməsi istiqamətində yerinə yetirilən ardıcıl tədbirlərdən ibarətdir. Bu gün muxtar respublikamızda əhalinin maddi təminatının yaxşılaşdırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, eləcə də yoxsulluğun aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər hər birimizin gözü qarşısında cərəyan edir. Bu tədbirlərin davamı olaraq pandemiya dövründə hər bir işsiz vətəndaşa kömək məqsədilə 190 manat vəsait ayrıldı. Mən də ayrılan vəsaitdən yararlandım. 2 ay davamlı olaraq aldığım vəsait ailəmizin təminatı baxımından çox kömək oldu. Göstərilən qayğıya, işsiz vətəndaşlar üçün yaradılan şəraitə görə dövlətimizə minnətdaram. Bütün bunlar ölkəmizdə insan amilinə verilən qiymətin daha bir ifadəsi, müstəqil Azərbaycan Respublikasının artan iqtisadi qüdrətinin göstəricisidir.



***Rəfael KƏRİMOV, sahibkar:*** – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası mühüm əhəmiyyətə malikdir. Dövlət proqramına uyğun olaraq muxtar respublikada işsizliyin aradan qaldırılması, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi istiqamətində uğurlu tədbirlərin həyata keçirilməsi cari ildə də davam etdirilir. Muxtar diyarımızda həyata keçirilən davamlı sosial-iqtisadi islahatların, o cümlədən əhalinin məşğulluğunun, ünvanlı sosial yardımın təmin edilməsinin məntiqi nəticəsidir ki, sakinlərin sosial rifah halı daha da yaxşılaşıb. Proqramın icrası əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə hərtərəfli şərait yaradır, aztəminatlı ailələrin özünüməşğulluq imkanlarını artırır.



***Dilarə ƏLİYEVA:*** – Davamlı sosial-iqtisadi inkişafın əsas məqsədlərindən biri həyat səviyyəsinin yüksəldilməsidir. Bu mənada, muxtar respublikamızda iqtisadi inkişafın artan tempi əhali gəlirlərinə də öz təsirini göstərməkdə, insanların həyat səviyyəsinin yüksəlməsi üçün əsas amil rolunu oynamaqdadır. Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, yeni iş yerlərinin yaradılması və səmərəli məşğulluğun təmin olunması sahəsində aparılan dövlət siyasəti də bu məqsədə xidmət edir. Əhalinin məşğulluq problemlərinin həlli istiqamətində görülən işlər, yaradılan yeni emal və istehsal müəssisələri, mövcud istehsal sahələrinin fəaliyyətinin bərpa edilməsi, sahibkarlığın inkişafına dövlət dəstəyi bu problemlərin həllində mühüm rol oynayıb. Həyata keçirilən iqtisadi siyasət, son nəticədə, özünü insanların həyat səviyyəsinin yüksəlməsində göstərir ki, bu da yeni inkişafa aparan əsas amillərdən biridir. Yardım alan vətəndaşlar arasında adımın olması məni çox sevindirdi, ailəmə maddi dəstək oldu. Dövlətimizin hər zaman öz vətəndaşının yanında olmasını hiss etmək, həqiqətən də, insana böyük qürur yaşadır. Mən bütün bunlara görə ailəmiz adından dövlətimizə minnətdaram.

*Əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən son tədbirlər bir daha sübut etdi ki, bu gün ulu öndərin ideyaları dönmədən, uğurla həyata keçirilməkdədir.*

**Nuray CƏFƏROVA**
***jurnalist***

*Naxçıvan Dövlət Universitetinin təşəbbüsü ilə "Clarivate Analytics" Təhsil Şirkətinin Təhsil proqramları üzrə şöbəsinin rəhbəri Valentin Boqorov "Web OF Science" elmi məlumat bazasının imkanları və effektiv istifadə qaydalarına, beynəlxalq nüfuzlu jurnallara çıxış əldə olunmasına dair vebinar təlim keçib.*

## Beynəlxalq vebinar təlim keçirilib

Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev universitetdə ali təhsilin və elmi tədqiqatçılığın davamlı inkişafı, elmi kadr potensialı barədə ətraflı məlumat verib. Qeyd edilib ki, ali təhsil ocağında aparılan elmi-tədqiqat nəticələri, əsasən, universitetin 4 seriyadan ibarət "Elmi əsərlər" jurnalında nəşr olunur. Bildirilib ki, son 10 ildə universitet əməkdaşlarının 1135 elmi məqaləsi, 335 tezisi xaricdə dərc olunub ki, onlardan 80-i "Clarivate Analytics" (əvvəlki adı "Thomson Reuters") yüksək impakt faktorlu jurnalların payına düşür. Elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi, elmi-texniki potensialın qorunub saxlanılması və inkişaf etdirilməsi, elmi tədqiqatların əlaqələndirilməsi gələcək perspektiv kimi diqqətə çatdırılıb. Rektor universitetin "Elmi əsərlər" jurnalının "Web OF Science" də indeksləşməsi bazasına daxil olmasını gələcək fəaliyyət istiqaməti kimi önə çəkib.

"Clarivate Analytics" şirkətinin Azərbaycan, Gürcüstan və Ukrayna üzrə nümayəndəsi Sevinc Səfərova təlimin məqsədindən, gələcək əməkdaşlığın perspektivlərindən danışıb.

"Müasir elmi-tədqiqatçılar üçün informasiya vasitələri" mövzusunda çıxış edən Valentin Boqorov qeyd edib ki, hazırda Azərbaycanın 40 ali təhsil müəssisəsi "Web OF Science" elmi platformasına çıxış imkanına malikdir. Vurğulanıb ki, son 5 ildə Azərbaycan alimlərinin impakt faktorlu jurnallarda çap olunmuş məqalələrinin ölkə üzrə ümumi sayı 74 faiz artıb, ali təhsil müəssisələri üzrə müvafiq göstərici 88 faiz təşkil edib. "Web OF Science" elmi bazasında 2017-ci ildə 1160 elmi-tədqiqat işi qeydə alınıb ki, bu da son 25 ildə Azərbaycan üzrə publikasiya sayında rekord göstəricidir. Həmin məqalələrin, təxminən, 43 faizi ali təhsil müəssisələrinin payına düşüb. "Web OF Science" bazasına daxil olan məqalələrin artım dinamikasına görə Azərbaycan son 3 ildə Cənubi Qafqaz ölkələri arasında davamlı olaraq 1-ci yerdə qərarlaşıb. 2015-ci ildə Azərbaycandan cəmi 2 jurnal "Web OF Science" bazasında indeksləşdirilmişdirsə, 2017-ci ildə bu göstərici 7-yə çatıb, 2018-ci ildə isə ölkəyə bu sahədə liderlik qazandırıb.

Şirkət təmsilçisi qeyd edib ki, "Clarivate Analytics" şirkəti ilə Azərbaycan ali təhsil müəssisələri arasında əməkdaşlığın növbəti 3 il ərzində davam etdirilməsinə dair qəbul edilmiş qərar, həmçinin Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə "Clarivate Analytics" şirkəti arasında 2018-2021-ci illəri əhatə edən əməkdaşlıq üzrə Fəaliyyət Planı Azərbaycanda elmin inkişafına böyük təkan verəcək.

Sonra "Web OF Science" bazasından istifadə qaydaları, bu şəbəkənin məlumat bazasında yerləşən elmi məqalələr, onlardan istifadə yolları haqqında məlumat verilib.

Sonda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru Azad Novruzov, "Naxçıvan" Universitetinin rektoru, filologiya üzrə fəlsəfə doktoru Nurlana Əliyeva mövzu ətrafında çıxış ediblər.

**Səadət ƏLİYEVA**

Tarixi abidələrimiz milli sərvətimizdir

# Tariximizi qoruyub yaşatmaq vətənpərvərlik nümunəsidir

***Azərbaycan Respublikasının öz müstəqilliyinə qovuşması ölkəmizin sosial-iqtisadi həyatının bütün sahələrində islahatların aparılmasını zəruri etmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev 1993-cü ildə respublika Prezidenti seçildikdən sonra bu islahatları ardıcıl şəkildə həyata keçirməyə, ölkəmizin beynəlxalq mövqeyini qorumağa, daxili vəziyyətini stabilləşdirməyə yönəldilmiş tədbirlər görməyə başladı. Bu sahədə görülən mühüm işlərdən biri də qanunvericilik aktlarının yaradılması idi. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul edilən Konstitusiyası çoxsaylı qanunların yaranması üçün təməl oldu. Respublikamızın Konstitusiyasına görə, tarix və mədəniyyət abidələrinin qorunması hər bir ölkə vətəndaşının mühüm vəzifəsinə çevrildi.***



Tarix və mədəniyyət abidələrinin qorunmasının bütün ölkə vətəndaşlarının əsas vəzifələrindən biri kimi Konstitusiyamızda təsbit edilməsinə baxmayaraq, bu sahədə mövcud olan boşluqlar mədəni irsimizin qorunmasını və öyrənilməsini çətinləşdirirdi. Bir çox xarici ölkə vətəndaşları izin almadan ölkəmizin tarix və mədəniyyət abidələrinin fotoşəkillərini çəkir, bir çox hallarda isə onları yanlış şərh edirdilər. Tarix və mədəniyyət abidələrinin məhv edilməsi, tariximizi yaşadan eksponatların xaricə daşınması kimi təhlükəli bir proses də başlamışdı. Bəziləri ölkəmizin ağır iqtisadi vəziyyətindən və vətəndaşlarımızın ehtiyacından istifadə edərək onların qiymətli xalçalarını, qızıl, gümüş və mis əşyalarını dəyər-dəyməzinə əllərindən alırdılar.





Azərbaycan xalqı respublikamızın bu ağır günlərində öz mədəni irsini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Bu ağır vəziyyətdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə yaradılan qanunlar və onun mədəni irsin qorunmasına münasibəti arzuolunmaz proseslərin qarşısını aldı. 1990-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə Gülüstan tarix-mədəniyyət qoruğu yaradıldı. 1997-ci ilin yazında Azərbaycan Avropa Mədəniyyət Konvensiyasına qoşuldu. Həmin ildə “Mədəniyyət haqqında” qanun imzalandı. 1998-ci il aprel ayının 10-da “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Bu qanunla abidələrimizin qorunması dövlət təminatı altına alındı, onların tədqiqi, qeydə alınması, xaricə aparılması və xaricdən gətirilməsinin qanunla tənzimlənən normaları müəyyənləşdirildi. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində 2002-ci ildə Azərbaycan Abidələrin Bərpası, Konservasiyası və Tədqiqi Beynəlxalq Mərkəzinə üzv qəbul olundu. Azərbaycanın dövlət əhəmiyyətli abidələri Şirvanşahlar saray kompleksi və Qız qalası da daxil olmaqla, İçərişəhər YUNESKO-nun “Dünya mədəniyyəti irsi” siyahısına salındı. Xalqımızın ümummilli liderinin tarix və mədəniyyət abidələrinin qorunmasının, Azərbaycan xalqının tarixinin milli konsepsiya baxımından öyrənilməsinin zəruriliyi ilə bağlı dəyərli tövsiyələri bu gün də ölkəmizdə aparılan milli-mədəni irsə varislik siyasətinin başlıca prinsiplərini təşkil edir.

Qədim diyarımız Naxçıvanda da tarix və mədəniyyət abidələrinin qorunması ilə bağlı xeyli işlər görülmüşdür. Xalqımızın ümummilli lideri Heydər Əliyevin qayğısı və tövsiyələri əsasında Əshabi-Kəhf ziyarətgahında təmir-bərpa işləri aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında” 2001-ci il 26 aprel tarixli Sərəncamı da ulu öndərin milli tarixi irsimizə ali münasibətinin bu gün də layiqincə davam etdirilməsinə bariz nümunədir. Sərəncamdan sonra 2005-ci ildə Ali Məclis Sədrinin təşəbbüsü ilə AMEA Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universiteti əməkdaşlarından ibarət elmi ekspedisiya təşkil edilmişdir. Gəmiqaya ətrafındakı arxeoloji abidələr öyrənilmiş, etnoqrafik, folklor və onomastik materiallar toplanmışdır. Gəmiqaya ətrafında aşkar olunan arxeoloji abidələr, xüsusilə mühüm tarixi əhəmiyyətə malik olmuşdur. Bu abidələr arasında Nəbiyurdu yaylağındakı Erkən Tunc və Erkən Dəmir dövrlərinə aid qəbir abidələri, Tivi və Bist kəndləri ərazisində qeydə alınan Tunc və Erkən Dəmir dövrlərinə aid arxeoloji abidələr qədim tariximizin öyrənilməsi üçün dəyərli mənbədir. Ekspedisiya Gəmiqaya qayaüstü rəsmlərinin yayıldığı 136 hektar ərazidə olmuş, 2040 daş üzərində 7477 təsvir qeydə almışdır. Bu tədqiqatların nəticəsi kimi 2020-ci ilin iyun ayında “Gəmiqaya qayaüstü rəsmləri” adlı fundamental kitab ərsəyə gəlmişdir. Nəfis tərtibatlı yeni albom-kataloq diyarşünaslığa və milli tariximizə qiymətli elmi töhfə, beynəlxalq elmi ictimaiyyətin də diqqətini bu tarixi yazılı abidələrə və ümumiyyətlə, qədim diyarımızın zəngin tarixinə cəlb edə biləcək mükəmməl elmi-kütləvi nəşrdir.

Araşdırmalar təsdiq edir ki, Naxçıvanın indiki əhalisi min illər bundan əvvəl bu ərazidə məskən salan qədim tayfaların varisləridir. Muxtar respublikamızın ərazisində mövcud olan qədim mədəniyyət abidələrinin tədqiqində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında” 2005-ci il 6 dekabr tarixli Sərəncamının böyük əhəmiyyəti olmuşdur. 2006-2019-cu illərdə aparılan araşdırmalar zamanı 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Abidələrin həm qeydə alınmasında, həm də tədqiqində beynəlxalq ekspedisiyaların üzvləri də iştirak etmişdir. ABŞ-ın Corciya Universitetinin əməkdaşları və Fransa Milli Araşdırmalar Mərkəzinin əməkdaşları ilə aparılan araşdırmalar zamanı I Kültəpə, II Kültəpə, I Maxta Kültəpəsi, Ovçular təpəsi, Naxçıvantəpə, Uçan Ağıl, Oğlanqala, Qızqala və digər abidələrdə qazıntılar aparılmış, Arpaçay vadisində olan tarix və mədəniyyət abidələri müştərək araşdırmalarla öyrənilmişdir. Araşdırmaların nəticələri ilə bağlı olaraq xüsusi internet saytı yaradılmış və bu saytda Naxçıvanın tarix və mədəniyyət abidələri haqqında məlumat yerləşdirilmişdir.

2017-ci ildə aşkar olunaraq tədqiq edilməyə başlayan Naxçıvantəpə yaşayış yeri qədim mədəniyyətimizin, o cümlədən Naxçıvan şəhərinin tarixinin öyrənilməsi üçün önəmli nəticələr vermişdir.

ABŞ-ın Corciya Universitetinin əməkdaşları ilə II Kültəpə və I Maxta Kültəpəsində yoxlama qazıntıları aparılmış, Arpaçay vadisində olan tarix və mədəniyyət abidələri müştərək araşdırmalarla öyrənilmişdir. Araşdırmaların nəticələri ilə bağlı olaraq xüsusi internet saytı yaradılmış və bu saytda Naxçıvanın 45 arxeoloji abidəsi haqqında məlumat verilmişdir.

Fransanın Milli Araşdırma Mərkəzinin əməkdaşları ilə Şərur rayonunda yerləşən Ovçular təpəsi abidəsində 2006-2007-ci illərdə tədqiqatlar aparılmışdır. Ekspedisiya, həmçinin kəşfiyyat xarakterli araşdırmalar aparmış, Batabat, Dizə kurqanları və onlarla digər qiymətli abidələr qeydə alınmışdır. Ekspedisiya əməkdaşlarının Naxçıvan şəhəri yaxınlığında yerləşən Duzdağdakı araşdırmaları xüsusilə diqqətəlayiq olmuşdur. Tədqiqat zamanı müəyyən edilmişdir ki, Duzdağda eramızdan əvvəl VI minillikdən başlayaraq duz çıxarılmışdır. Çıxarılan duz yerli əhalinin tələbatını ödəməklə yanaşı, beynəlxalq ticarətdə istifadə olunan ən qiymətli məhsullardan biri olmuşdur. Araşdırmalar zamanı eramızdan əvvəl VI-II minilliklərə aid keramika məmulatı, duzçıxarma üçün istifadə olunan müxtəlifölçülü daş çəkiclər əldə edilmişdir. Müəyyən olunmuşdur ki, duz qədim dövrdə duz laylarının yer səthinə çıxan hissəsində açıq üsulla çıxarılmışdır. Ekspedisiyanın apardığı araşdırmaların nəticələri “Naxçıvanın qədim mədəniyyətləri” adlı kitabda ümumiləşdirilmişdir.



AMEA Naxçıvan Bölməsinin Naxçıvan Dövlət Universitetinin əməkdaşları ilə birlikdə apardığı araşdırmalar zamanı dünya və ölkə əhəmiyyətli arxeoloji abidələr, kitabələr, memarlıq abidələri, o cümlədən onlarla hamam, körpü və məscidlər qeydə alınmışdır. Bu abidələr arasında Şərur rayonunda aşkar edilən II Qız qalası, Babək rayonunun Yuxarı Buzqov kəndi yaxınlığında qeydə alınan Erkən Tunc dövrünə aid Hovuzlu yaşayış yeri, Kəngərli rayonunun Qarabağlar kəndi yaxınlığında yerləşən I Bəzəkli, II Bəzəkli, Çalxanqala kəndi yaxınlığındakı Qırmızıdaş qalaları, Ordubad rayonunun Bist və Ələhi kəndlərindəki körpüləri göstərmək olar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında” 2006-cı il 28 iyun tarixli Sərəncamı tarix və mədəniyyət abidələrinə qayğının ifadəsidir. Nuhla bağlı əfsanələr Naxçıvanın qədim tarixinin, folklorunun, bütövlükdə, milli-mənəvi mədəniyyətinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Ali Məclis Sədrinin Azərbaycan Respublikası Prezidentinin maddi-mədəni irsimizin qorunub yaşadılması ilə bağlı qarşıya qoyduğu vəzifələrə diqqətlə yanaşması və onun icra olunması ilə bağlı gördüyü tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən tarix və mədəniyyət abidələri qorunmaya alınmışdır. 2003-cü ildə Möminə xatın və Qarabağlar türbələrində beynəlxalq təşkilatların iştirakı ilə bərpa və yenidənqurma işləri aparılmışdır.

Tarix və mədəniyyət abidələrinin qorunması ilə bağlı olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarı ilə 2006-cı ildə Arpaçay Tarix-Mədəniyyət Qoruğu, Gəmiqaya Tarix-Bədii Qoruğu yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu ildə “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında”, 2010-cu ildə “Şahtaxtinskilər Muzeyinin yaradılması haqqında”, “Xan sarayı” Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında”, 2011-ci ildə “Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında” imzaladığı sərəncamlar tariximizin və mədəni irsimizin öyrənilməsində mühüm rol oynamışdır.

Ali Məclis Sədrinin qayğısı ilə Möminə xatın türbəsi, Qarabağlar Türbə Kompleksi, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi, Gülüstan türbəsi, Qazançı körpüsü, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində, Xanəgah Abidə Kompleksində, Ordubad rayonunun tarix-memarlıq abidələrində, Yengicə və Şahtaxtı kəndlərindəki Şərq hamamlarında, Naxçıvan şəhər buzxanası və onlarla digər abidələrdə bərpa və yenidənqurma işləri aparılmışdır. Nəinki milli, ümumilikdə, Şərq memarlıq məktəbinin nadir və qiymətli nümunələrindən sayılan, Azərbaycanın qülləvarı türbələri sırasına daxil olan, öz orijinal quruluşuna görə xüsusilə diqqəti cəlb edən Yusif Küseyir oğlu türbəsi də Ali Məclis Sədrinin tapşırığına əsasən bərpa olunmuşdur. Cari il aprel ayında türbədə aparılan bərpa işləri ilə maraqlanan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab



Vasif Talıbovun bu fikirləri muxtar respublikamızda milli tarixi irsimizin qorunub yaşadılması istiqamətində aparılan mühüm dövlət siyasətini özündə əks etdirir: ***“Abidələrin bərpası və qorunub saxlanılması xalqın tarixinin yaşadılması deməkdir. Bu gün muxtar respublikada qədim, orta əsrlər və son dövrlərə aid abidələrimiz bərpa olunur. Lakin təəssüflə deməliyik ki, ötən əsrin 90-cı illərinin acı nəticələri tarixi abidələrimizə təsirsiz qalmamışdır. Həmin dövrdə anbar kimi istifadə olunan Yusif Küseyir oğlu türbəsinin memarlıq quruluşuna ciddi ziyan vurulmuşdu. Sonrakı dövrdə abidədə bəzi bərpa işləri aparıldı. Bu gün isə abidə əsaslı şəkildə bərpa olunaraq ikinci həyat verilmişdir. Muxtar respublika ərazisindəki digər abidələrimiz kimi, bu abidə də tədqiq olunmalı, abidə ilə bağlı materiallar toplanılaraq kitab halında nəşr edilməlidir. Çünki abidələrin bərpası ilə yanaşı, həm də onların öyrənilməsi qarşıda duran əsas vəzifədir. Tariximiz həm abidələrdə, həm də yazılı mənbələrdə – kitablarda yaşadılmalıdır”.***

Yuxarıda qeyd olunanlar tarix və mədəniyyət abidələrinin qorunması və tədqiqi ilə bağlı görülən işlərin yalnız bir qismidir. Bütün bunlar isə xalqımızın ümummilli lideri Heydər Əliyevin mədəni irsimizə qayğısı və onun tövsiyələrinin ardıcıllıqla həyata keçirilməsinin nəticəsidir.

*Naxçıvan Muxtar Respublikasının ərazisi müxtəlif dövrlərə aid tarix və mədəniyyət abidələri ilə zəngindir. Bu torpağın hansı hissəsinə külüng vursan, oradan ulu əcdadlarımızla bağlı maddi mədəniyyət nümunələri üzə çıxacaqdır. Naxçıvan Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin, o cümlədən Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətlərinin beşiyidir. Bu abidələr Azərbaycan türklərinin qədim dövrdən Naxçıvanın yerli əhalisi olduğunu təsdiq edən əvəzedilməz maddi mədəniyyət nümunələridir. Tarix və mədəniyyət abidələrinin tədqiqi alimlərimizin, onların qorunması isə ümumxalq işidir.*

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Naxçıvanda uşaqla bağlı inam və inanclar

***İnanclar sınamalar nəticəsində formalaşır və qətiləşir. İstər inamların, istərsə də inancların ortaq nöqtəsi məhz sınamalar nəticəsində olur. İnamlarda sınamalar hər zaman əsas şərtə çevrilməsə də, inanclarda bu məsələ yalnız inamla əlaqəlidir.***

Uşağın dünyaya gəlməsindən bir neçə gün sonra icra edilən "göbəkbasdırma", "göbəkkəsmə" deyilən mərasimə nəzər salaq. İnanclarda göbəkbasdırma valideynlərin arzusu, əhdi kimi gerçəkləşir. Göbəkbasdırmada bir gəncin yetkinlik yaşında həyatını bir peşə ilə həmişəlik bağlamaq hadisəsi şərtlənir. Əslində, strukturda elə bir fərq yoxdur. Başqa mənada yanaşsaq, göbəkkəsmə, göbəkbasdırma adlarındakı "kəsmə", "basdırma" sözlərində semantik yaxınlıq da tapa bilərik. Burada kəsmə də, basdırma da bir-birinə bağlamaq mənalarını ifadə edir. Məhz elə Naxçıvanda da uşağın göbəyinin basdırıldığı yerlə onun gələcək peşəsi arasında əlaqə olduğuna inanılır. Hazırda da türk xalqlarında bu inanc geniş yayılıb. Uşaqla bağlı torpağa basdırılmanın müxtəlif formaları vardır.



Naxçıvanda vaxtilə belə bir inanc var idi ki, qırxlı uşağı tək qoymazlar. Yoxsa cin onu öz uşağı ilə dəyişər. Əgər cin onu dəyişdirsə, uşağı altı qəbirdən keçirdərlər, yeddincidə bədəninin yarısından basdırar, sakitləşəcəyini gözləyərdilər. İnancda ağlamaq torpağın uşağa münasibətinin göstəricisi kimi üzə çıxır. İnanardılar ki, torpaq valideynlərin arzusunu qəbul edərək ona şəfa verib, onu əvvəlki halından yeni halına gətirib. Yəni uşaq yeni həyatına yer (torpaq) ana onu "dünyaya gətirəndən" sonra başlayıb.

Uşaqla bağlı inamlar onun həyatının müxtəlif dövrlərini əhatə etməklə bir sistem yaradır. Bunlara nəzər salaq:

– Doğulacaq uşaqla bağlı: – Altaylarda gəlin yuxuda bıçaq, silah görərsə uşağın oğlan olacağına inanılır. Həmçinin hamilə qadın yuxuda ilan görsə oğlu, çiçək görsə qızı olar. Türkiyənin Anadolu vilayətində qadının yuxuda gördüyü qırmızı gül oğlan, sarı gül qız kimi yozulur. Naxçıvanda isə "uşaq qadının sağ böyrü tərəfində daha çox yerləşmiş olarsa, oğlan, sol böyründə olarsa, qızdır" inancı mövcuddur. Təbii ki, bu inamlar gerçəkləşdiyi təqdirdə inanca çevrilir. Bu mətnlərdə bütün elementlərin doğuluşla bağlılığı xüsusi funksiyadır. Onları fərqləndirən oğlan-qız qütbləri ilə işarələndirilməsidir. Düşüncədə bıçaq, silah, ilan, qırmızı gül, sağ böyür kişi başlanğıcı, çiçək, sarı gül, sol böyür qadın başlanğıcı ilə əlaqələndirilir. Sağın kişi, solun qadınla işarələnməsi mühafizəkar ənənədir. Evlərdə sol tərəf qadınlara, sağ tərəf kişilərə aid edilir. Qadın evin sol əli, kişi sağ əli hesab olunub.

– Vaxtla bağlı: – Naxçıvanda deyilir ki, gündüz doğulan uşağın ayağı ağır, gecə doğulanın əli yüngül olar. Göründüyü kimi, xoşbəxtlik-bədbəxtlik, uğur-uğursuzluq kimi paralellər düşüncədə doğum zamanı müxtəlif elementlərlə işarələnir. Bu işarələr inanclarda mühüm şərt olaraq qəbul edilir.

– Qırxlı uşaqla bağlı: – Bu müddət qırx günlə müəyyənləşən mərhələdir. Naxçıvanda inanılır ki, qırxlı uşağın üstünə dua gətirməzlər (uşaq boğular, qaralar, ölər); əti onun üstünə gətirməzlər (uşaq süst olar); qırxlı uşağı tək qoymazlar, qırxı çıxana qədər başının altına bəyaz, eşiyə çıxanda duz-çörək qoyarlar.

Qırx gün o, ulduz görsə, yuxusu qaçar, axşamçağı bələyərlər ki, yuxusu qaçmasın. Axşam astanadan keçirməzlər ki, bizdən yeylər toxunmasın. Nəzər dəyməmək üçün yanına dovşan tükü, dağdağan, üzərlik, sarımsaq, iynə, çörək qoyarlar. Uşağın paltarına tikilən dağdağanı qışın çilləsində qırmaq lazımdır, başqa vaxt qırılsa, təsiri olmaz.

Bu qırx gün sanksiyalaşdırılmış müddət kimi düşüncədə yaşayır. Bu müddət parçalar, hissələr kimi yox, vahid, bütöv, tam müddət olaraq düşünülür. Ona görə də körpə bu müddətdə "qırxlı uşaq" adlanır. Bu müddət başa çatandan sonra uşağı qırxdan çıxarırlar. Bunun üçün onu uzadırlar qara parçanın üstünə, başına qırx üskük su tökürlər. Qırx gün ənənədəki qayda-qanunları özündə cəmləşdirən, onları qoruyan, hifz edən mühafizəkar bir sistemdir. Bu sistemdə uşağın üstünə dua, ya ət gətirməmək inanclarında eyni semantik mahiyyət var. İnanc üçün bu mahiyyətdə dua ilə ətin fərqi yoxdur. Bu mahiyyətin mənası da, ömrü də həmin qırx günlə şərtlənir. Qırx gündən sonra ət başqa, dua başqa mahiyyət daşıyacaq.

Yuxunun qaçması, bizdən yeylərin toxunması da bu sistemdə axşamla (ulduzla, astananın axşamla bağlılığı) əlaqələnir və çox əski bir görüşdən qaynaqlanır. Dovşan tükü, dağdağan, üzərlik, sarımsaq, iynə, çörək kimi sadalanan elementlər qırxlı uşaq olan evdə qoruyuculuq statusuna malik olur. Bütün bunlar ritual-mifoloji situasiyanın mahiyyətini təşkil edir.

Uşağı qırxdan çıxardıqdan sonra statusdəyişmə baş verir. Bu, qırxlı uşaq adından uşaq adına keçilməsidir. Əslində, bu, yeni mərhələdir, burda yeni elementlər funksionallaşır.

– Uşağın ağzından axan su ilə bağlı: – Naxçıvanda deyirlər ki, uşağın ağzının suyu tez-tez axanda dayısının corabı ilə silərlər ki, kəssin. Ancaq bunu çox eləməzlər, deyərlər, onda dayının ömrü azalar. Mətndə bir-biri ilə əlaqəli uşaq və onun dayısı çox dərin qatda iki qütb təşkil edir. Bir qütbün (uşağın) əlacı ikinci qütbdədir (dayıdadır). Bu halda xəbəri olmadan belə, birinci qütb ikinci qütbə zərər vura bilər. Bu hal element olaraq corabın rolunu qabarıqlaşdırır. Uşağa yaxşılıq, dayısına yamanlıq məhz bu elementlə bağlıdır.

– Boş beşiklə bağlı: – Naxçıvanda boş beşiyin yırğalanması ilə uşağın xəstələnəcəyinə inanılır. Bu inanc qədim diyarımızda və Türkiyənin Anadolu vilayətində hələ də yaşayır.

– Dişlə bağlı: – Uşaq dişini dəyişəndə düşən süd dişini qoz qabığının arasına qoyub sonra verərlər özünə ki, aparsın ətrafdakı ən uzunömürlü adamın evinin damına atsın. Atan zaman belə desin:

*Qollu-budaqlı olum,*
*Mən də onun çağlı olum.*

Qənaətimizcə, uşağın düşmüş süd dişi ilə göbəyə münasibət eyni düşüncədən qaynaqlanır. Göbəyin basdırıldığı yerlə uşağın gələcək peşəsi arasında bağlılıq görüldüyü kimi, damına süd dişinin atıldığı adamın ömrü ilə uşağın ömrü arasında eynilik olacağına inanılır.

Ümumiyyətlə, bu tipli inanclarda magik-arxaik təsəvvürlər bəzən üst qatda olur, çox tez görünür. Naxçıvanda inanılır ki, körpə uşağın ovcunu yumazlar, deyərlər ki, uşağın ovcundakı kir onun yuxusudur. Onu da deyirlər ki, təzə anadan olmuş uşağın ağzında dişi varsa, ona qurban kəsmək lazımdır, yoxsa evdəki adamlara xətər dəyər.

Hər bir inancın özü ayrı-ayrılıqda bir mətndir. Bu mətnləri ard-arda, yan-yana düzdükcə semantik məkan ya eninə, ya uzununa davamlı olaraq genişlənir, hadisələr bir-biri ilə əlaqələnir. İnanılır ki, hamilə qadın tez-tez Aya baxanda oğlu olar. Məlumdur ki, Ay, əsasən, kişi başlanğıcı hesab olunur. Deməli, oğlan arzusu kosmoqonik düşüncəni fəallaşdırır. Sonrakı mərhələ sağ-solla işarələndirilir. Türk düşüncəsində sağ kişi ilə, sol qadınla əlaqəlidir. Hamilə qadın ilk olaraq sağ ayağını atırsa, oğlu olacağına inanılır. İnanca görə, hamilə qadın olan evə dovşan gətirməzlər.

Ailədə oğlan uşağı tez-tez ölərsə, yeni doğulan oğlan uşağına yeddi yaşına qədər qız paltarı geyindirilər, qız kimi saç hörərdilər. İnama məntiqi cəhətdən yanaşsaq, deməli, ailədə tez-tez oğlan uşaqlarının ölməsinin daha arzulanmaz olduğunu müəyyənləşdirə bilərik. Ona görə də əzrailin ancaq oğlan uşaqlarını öldürdüyünə, doğulan oğlan uşaqlarına qız paltarı geyindirməklə, saç hörməklə isə onun zənninin azdırılmasına inanılardı.

*Nümunələrdən göründüyü kimi, istər inamlar, istərsə də inanclar bəzi hallarda yasaqlarla nəticələnir. Beləliklə, biz fərq etmədən özümüzə yasaq, qadağa qoymuş hesab edirik. Ancaq Naxçıvan folklor mətnlərinin zənginliyi, çoxvariantlılığı bölgələr üzrə müxtəlif adət-ənənələrdən xəbər verir. Buna baxmayaraq, inamlar sınanılır, öz təsdiqini tapdığı təqdirdə inanc olaraq yaşadılır.*

**Əkrəm HÜSEYNZADƏ**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

***İyunun 24-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində növbəti onlayn ekskursiya keçirilib. Ekskursiyanı muzeyin bələdçisi Əfsanə İbrahimova aparıb.***

# "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində onlayn ekskursiya



Əvvəlcə muzey kompleksinin yaradılma tarixi haqqında məlumat verilərək bildirilib ki, Naxçıvanqalanın bərpasına 2010-cu ildən başlanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" 2013-cü il 5 iyun tarixli Sərəncamına əsasən muzey yaradılmış, 2014-cü il 7 aprel tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin açılışı olmuşdur.

Vurğulanıb ki, Naxçıvanqala Naxçıvan şəhərinin cənub-şərqində yerləşən arxeoloji abidədir. Elmi ədəbiyyatda və xalq arasında Naxçıvanqala, Köhnəqala adları ilə tanınmış qala 632-652-ci illərdə inşa olunmuşdur. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi 1 ekspozisiya zalından, Nuh Peyğəmbərin məzarüstü türbəsindən, yeraltı sığınacaq – mağara hissədən ibarətdir.

Onlayn ekskursiya zamanı ekspozisiya zalında nümayiş olunan eksponatlar haqqında geniş məlumat verilərək bildirilib ki, eramızdan əvvəl V minilliyə aid təsərrüfat küpü, eramızdan əvvəl V-III minillik, eramızdan əvvəl IV-III minilliyə aid daş əmək alətləri, daş baltalar, daş gürzlər, dən daşları, həvəng və dəstəklər məişətdə geniş istifadə olunmaqla yanaşı, duz mədənlərində duz sallarının parçalanmasında, nisbətən irihəcmli daş əmək alətləri isə tunellərin qazılmasında istifadə olunmuşdur. Muzeydə nümayiş olunan qədim eksponatlar sırasında eramızdan əvvəl III-II minilliyə aid boyalı qablar da vardır ki, bu qablar II Kültəpə yaşayış yerindən aşkar olunmuşdur. Son Tunc və Erkən Dəmir dövrlərinə, yəni eramızdan əvvəl II-I minilliyə aid keramika məmulatları və gil qablar muzeyin dəyərli eksponatları sırasındadır.

Qeyd olunub ki, muzeydə nümayiş olunan məzarüstü sənduqələr XV əsrə aid olub, indiki dövrdə sinədaşı sayılır. Məzarüstü başdaşları və sənduqələrin üzərində xalqımızın inancları, dini təsəvvürləri, həyat və ölüm haqqında düşüncələri əks olunub.

Ekspozisiyada XVIII-XIX əsrlərə aid milli geyim nümunələri, xalçalar, məfrəş, odlu və soyuq silahlar, mis məişət əşyaları, saxsı su borusu və quyu qapaqları, o cümlədən Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Şamil Qazıyevin Naxçıvanın qədim tarixini, mədəniyyətini, adət-ənənələrini, məişətini əks etdirən rəsm əsərləri muzeyə gələn tamaşaçılar tərəfindən maraqla qarşılanır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Birincilik keçirilib

***Dünən Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu ilə Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Sahil Parkında "Labirint" strateji intellekt oyunu üzrə birincilik keçirilib.***



Tədbirdə çıxış edən Gənclər Fondunun əməkdaşı Çingiz Ağayev və Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov bildiriblər ki, birinciliyin keçirilməsində əsas məqsəd iştirakçıların strateji düşüncə qabiliyyətlərini stimullaşdırmaq, onlara analitik düşüncə tərzini aşılamaq, gənclərin asudə vaxtının mənalı təşkil olunması və bu oyunun köməyindən istifadə edərək xüsusi istedada malik olan gəncləri müəyyənləşdirib gələcək fəaliyyətlərində stimul yaratmaqdır. Sonra püşkatma olub və iştirakçılar yarışa başlayıblar.

Oyunda 18-29 yaş arası 16 gənc mübarizə aparıb. Yekun nəticələrə əsasən Dürayə Məmmədli I, Məşdi Ələkbərov II, Samir Qəhrəmanov III yerin qalibi olublar. Qaliblər Gənclər Fondu tərəfindən diplomla təltif olunub və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

**Xəbərlər şöbəsi**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:* *Karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulması hansı məsuliyyətə səbəb olur?***

**Cavab:** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (211.2-ci maddə) 2 iyun 2020-ci il tarixli Qanunla edilmiş əlavə və dəyişikliyə əsasən epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər əlli manat məbləğində, vəzifəli şəxslər yüz manat məbləğində, hüquqi şəxslər iki yüz manat məbləğində cərimə edilir.

Yuxarıda nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə isə fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər dörd yüz manat məbləğində cərimə edilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

### *İtmişdir*

Şərur rayonu, Yuxarı Daşarx kənd sakini Məmmədov Gündüz Hüseyn oğlunun adına olan JN-387 inventar nömrəli, 10213038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Yengicə kənd sakini Seyidov Mirağa Mirəhməd oğlunun adına olan JN-884 inventar nömrəli, 10207018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Nail Əsgərov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 464**